

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 9 (23.896)

*15 yanvar 2022-ci il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Yanvarın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ukrayna Prezidenti Volodimir Zelenskinin dəvəti ilə Ukraynaya işgüzar səfərə gəlib.

Həmin gün Prezident Volodimir Zelenskinin dəvəti ilə Ukraynada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti ilə təkbətək görüşü olub. Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayıb. Azərbaycan nümayəndə heyəti Ukrayna Prezidenti Volodimir Zelenskiyə, Ukrayna nümayəndə heyəti isə Azərbaycan Prezidenti İlham Əliyevə təqdim edilib. Sonra dövlət başçılarının təkbətək görüşü olub. Prezidentlər görüşdə iki ölkə arasında əlaqələrin müxtəlif sahələrdə inkişafı ilə bağlı məsələləri müzakirə ediblər.

Yanvarın 14-də Kiyevdə geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Volodimir Zelenskinin iştirakı ilə Azərbaycan-Ukrayna sənədlərinin imzalanması mərasimi olub. Ukraynada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Volodimir Zelenski sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatlarla çıxış ediblər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Prezident Volodimir Zelenskinin dəvəti ilə Ukraynaya işgüzar səfəri həmin gün başa çatıb.

### *Sabitlik, güclü iqtisadiyyat və inkişaf*

## Şərur rayonunun Çərçiboğan kəndində kompleks quruculuq işləri görülüb

Naxçıvan Muxtar Respublikasındakı sabitlik və tərəqqi ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu inkişaf strategiyasının tərkib hissəsidir. Müstəqillik illərində əhalinin rahat yaşayışının təmin olunması və insan amilinə verilən dəyərin nəticəsidir ki, quruculuq işləri ilbəil genişlənir. Ulu öndərin siyasətinin uğurla davam etdirilməsi qədim diyarı inkişafının yeni mərhələsinə yüksəltmiş, həyata keçirilən quruculuq işləri bütün yaşayış məntəqələrini əhatə etmişdir. Ümummilli lider Heydər Əliyevin də dediyi kimi: ***"Naxçıvanlıların fədakarlığı, işgüzarlığı hesabına Naxçıvan yaşayır, inkişaf edir, Naxçıvanda quruculuq prosesləri gedir".***

Şərur rayonunun Çərçiboğan kəndi də hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuşdur. Kənddə geniş quruculuq işləri aparılmış, yol yenidən qurulmuş, ümumtəhsil və uşaq musiqi məktəbləri üçün yeni binalar, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası tikilmişdir.

## 2022-ci ildə ilk məktəb binası Çərçiboğan kəndində istifadəyə verilib





Yanvarın 14-də Çərçiboğan kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan 654 şagird yerlik məktəbdə 33 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, 3 elektron lövhəli sinif, 2 şahmat sinfi, 2 kompüter otağı, psixoloq və müəllimlər otaqları, hərbi kabinə, STEAM kabinəsi, kitabxana, 3 qarderob və idman zalı yerləşir. Kitabxana fondunda 13 min 396 kitab vardır.

STEAM kabinəsi zəruri öyrədici STEAM qurğuları, həmçinin yeni nəşr olunan ədəbiyyat və dərsliklərlə təchiz edilmişdir. Şagirdlər hazırladıqları "Xətt izləyən robot" və "Ağıllı parkinq" layihələrini təqdim etmişlər.

Müəllim Fəridə Abbasova yaradılan şəraitə görə minnətdarlıq etmişdir.

Məktəbdə internetə çıxışı olan 51 kompüter və 5 elektron lövhə quraşdırılmışdır ki, bu da tədrisin təşkilində yeni texnologiyalardan səmərəli istifadəyə imkan verir. Ali Məclisin Sədri elektron lövhəli sinifdə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ilə 200-dən artıq təhsil müəssisəsi arasında "Naxçıvan müstəqillik illərində" mövzusunda keçilən interaktiv dərsi izləmişdir.

Təhsil ocağındakı müasir standartlara cavab verən zəngin təchizatlı kimya, biologiya və fizika laboratoriyaları şagirdlərə nəzəri biliklərini təcrübi əsaslarla öyrənmək və praktikada tətbiq etmək imkanı yaradır. Bu laboratoriyalar tədris prosesinin keyfiyyətinin yüksəldilməsi baxımından mühüm rol oynayır.

Şagirdlərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi üçün hərbi kabinədə lazımi şərait yaradılmış, kabinə əyani vəsaitlərlə təmin olunmuşdur. Hərbi kabinəyə baxış zamanı bildirilmişdir ki, məktəbin məzunlarından 1-i Azərbaycan Polis Akademiyasında, 1-i Azərbaycan Dövlət Təhlükəsizlik Xidməti Akademiyasında, 1-i isə Heydər Əliyev adına Hərbi Liseyin II kursunda təhsilini davam etdirir.



Ali Məclisin Sədri hərbi peşənin əhəmiyyətini vurğulamış, gənclərin vətənpərvər ruhda böyüməsinə xüsusi diqqət yetirilməsi barədə tapşırıq vermişdir.

İdman zalındakı müasir şərait və müxtəlif avadanlıqlar, həyətdə açıq idman qurğularının qoyulması bədən tərbiyəsi dərslərinin yüksək səviyyədə tədrisinə imkan verir. Məktəbdə Futbol, Voleybol və Tennis idman klubları yaradılmışdır.

Şagirdlərin məntiqi düşünmə qabiliyyətinin formalaşmasında və təfəkkürünün inkişafında şahmat əvəzsiz vasitədir. Muxtar respublikada şahmatın tədrisi də bu baxımdan mühüm əhəmiyyət daşıyır. Məktəbdə şahmat sinfi yaradılmış və lazımi avadanlıqlarla təmin olunmuşdur.

Sonra məktəbin pedaqoji kollektivi ilə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək demişdir ki, ötən il Şərur rayon Şəhriyar, Qarabürc, Babək rayon Araz, Göynük, Ordubad rayon 1 nömrəli, Nüsnüs, Əndəmic, Dırnıs və Vələver kənd tam orta məktəbləri istifadəyə verilmişdir. Muxtar respublikanın təhsil müəssisələrində sürətli internetə çıxışı olan 5700-dən artıq kompüter və 650-dən çox elektron lövhə vardır. Təhsil işçilərinin maddi rifah halının yaxşılaşdırılması da diqqətdə saxlanılır. Bu tədbirlərin davamı kimi, 2022-ci il yanvarın 1-dən dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının qiymətləndirilməsi aparılmış müəllimlərin, həmin müəssisələrin direktor və direktor müavinlərinin, dövlət peşə təhsili müəssisələrində idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları orta hesabla 20, gənclərin çağırışaqədərki hazırlıq rəhbərlərinin aylıq vəzifə maaşları orta hesabla 40 faiz artırılmış, həmçinin gənclərin çağırışaqədərki hazırlıq rəhbərlərinin hərbi rütbəyə görə aylıq vəzifə maaşlarına əlavələr edilmişdir. Təhsilə göstərilən qayğının nəticəsidir ki, ötən il Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbi publik hüquqi şəxsə çevrilmiş, məktəbəqədər təhsil müəssisələri Təhsil Nazirliyinin tabeliyinə verilmiş,

*Ardı 2-ci səhifədə*





nazirliyin tabeliyində Distant Təhsil Mərkəzi, həmçinin 53 təhsil müəssisəsində STEAM kabinəsi, təhsil müəssisələrində 202 idman klubu yaradılmışdır. Gənc müəllimlərin fəallığını, peşəkar və fərdi inkişaflarını artırmaq məqsədilə "Naxçıvan Gənc Müəllimlər Assosiasiyası" İctimai Birliyi təsis edilmişdir. Aparılan təhsil quruculuğu tədbirlərinin tərkib hissəsi kimi Çərçiboğan kənd tam orta məktəbində də müasir tədris şəraiti yaradılmışdır. Rəhman Məmmədov göstərilən hərtərəfli diqqət və qayğıya görə muxtar respublikanın təhsil işçiləri adından minnətdarlıq etmişdir.

Məktəbin gənc müəllimi Aygül Kərimova minnətdarlıq edərək demişdir: "Ali Məclis Sədrinin qayğısı ilə kəndimizdə geniş quruculuq işləri aparılıb. Quruculuq ünvanlarından biri də Çərçiboğan kənd tam orta məktəbidir. Məktəbimizdə müasir tədris şəraiti yaradılmışdır. Bu gün müasirtipli məktəb binasının istifadəyə verilməsi bütün müəllim, şagird və valideynlər üçün böyük hədiyyədir. Ümummilli lider Heydər Əliyev deyirdi ki ***"Mənim əsərlərim şeir deyil, roman deyil, elmi kitab deyil, musiqi əsəri deyildir. Mənim əsərim xalqım üçün qurduğum, yaratdığım binalar, saraylar, universitet və məktəb binalarıdır, yollardır, körpülərdir, su hövzələri, su kəmərləridir".*** Ali Məclis Sədrinin də əsəri böyük zəhmət hesabına qurub-yaradılan müasir Naxçıvandır. Naxçıvanımız tarixin heç bir dövründə bugünkü qədər gözəl və abad olmamışdır. Bu gün məktəblərimizdə ulu öndər Heydər Əliyev yoluna sadiq sağlam gənclik yetişir. Muxtar respublika gəncliyi yaradılan şəraitə görə dövlətimizə minnətdardır. Bizim də borcumuz yaradılanları qorumaq, onlardan səmərəli istifadə etməkdir".

Aygül Kərimova məktəbin pedaqoji kollektivi adından Ali Məclisin Sədrini doğum günü münasibətilə təbrik etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Çərçiboğan kənd tam orta məktəbinin tədrisin müasir tələbləri səviyyəsində qurularaq istifadəyə verilməsi münasibətilə kollektivi təbrik etmiş, ümummilli liderimiz Heydər Əliyevin ***"Bizim təhsil sistemimiz müstəqil Azərbaycanın gələcək inkişafını təmin etməlidir"*** fikrini xatırladaraq demişdir: Azərbaycan 30 ildən artıqdır, müstəqil ölkə kimi yaşayır. Müstəqilliyimizin qorunub yaşadılması üçün ölkəmizdə vətənpərvər və təhsilli gənclər yetişdirilməlidir. Bu iş isə məktəblərdə həyata keçirilir. İstifadəyə verilən Çərçiboğan kənd tam orta məktəbi müasir tədrisin tələbləri səviyyəsində qurulub.

Ali Məclisin Sədri demişdir: Bu gün yetişən gənclik XXI əsrdə yaşayır. XXI əsr isə yeni texnologiyalar əsridir. Məktəbdə kompüter sinfi, STEAM otağı, laboratoriyalar, kitabxana və başqa müasir tədris avadanlıqları istifadəyə verilir ki, gənclərimiz özlərini XXI əsrin gəncləri kimi hazırlaya bilsinlər. Müəllimlərin vəzifəsi isə vətəninə, xalqına sədaqətli, vətənpərvər gənclər yetişdirməkdən ibarətdir. Bütün bunlar həyata keçirildiyi zaman ölkəmizin müstəqilliyi də uzunömürlü olacaq, Azərbaycan inkişaf etmiş ölkələr sırasında öz yerini qoruyub saxlayacaq.

Ali Məclisin Sədri müdriklərin "Bir ölkənin gələcəyini bilmək istəyirsənsə, onun gəncliyinə nəzər sal" fikrini diqqətə çatdıraraq demişdir ki, gənclərimizin hazırlanması üçün, ilk növbədə, məktəb və müəllimlər üçün şərait yaradılmalıdır. Çərçiboğan kənd tam orta məktəbindəki şərait imkan verəcəkdir ki, qarşıda duran bu vəzifələr layiqincə yerinə yetirilsin, təhsilli, vətənpərvər gənclər yetişdirilsin. Məktəbin nailiyyətləri onu deməyə əsas verir ki, məktəbdə yaxşı kollektiv formalaşıb. Məktəbin lazımi şəraiti olmadığı vaxtlarda kollektiv işinə məsuliyyətlə yanaşaraq nailiyyətlər qazanıb. Son 5 ildə məktəbin nailiyyətləri 50 faizdən yuxarıdır.

Ali Məclisin Sədri nailiyyətlərə görə kollektivə təşəkkür etmiş, tədrisdə uğurlar arzulamışdır.

Binanın həyətində bufet və qazanxana tikilmiş, açıq idman qurğuları quraşdırılmış, yaşıllıqlar salınmış, stadion təmir edilmişdir.

## Çərçiboğan kənd Uşaq Musiqi Məktəbi yeni binada fəaliyyət göstərəcək





Muxtar respublikada fəaliyyət göstərən musiqi məktəblərində yaradılan şərait milli musiqimizin yaşadılması baxımından mühüm əhəmiyyət daşıyır. Musiqi məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni binaların tikilməsi istedadlı musiqiçi kadrların yetişdirilməsinə böyük töhfə verir.

Yanvarın 14-də Çərçiboğan kənd Uşaq Musiqi Məktəbinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binada yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, 1983-cü ildən fəaliyyət göstərən Çərçiboğan kənd Uşaq Musiqi Məktəbində fortepiano, tar, kamança, nağara, qanun, balaban, qarmon və truba olmaqla, 8 ixtisas üzrə 140 şagirdin təhsili ilə 21 müəllim məşğul olur. 2021-2022-ci tədris ilində məktəbə 29 şagird qəbul olunmuşdur. Təhsil müəssisəsində Xor kollektivi, Nəfəsli alətlər, Xalq çalğı alətləri, Nağaraçalanlar ansamblları və uşaqlardan ibarət həvəskar Yallı qrupu fəaliyyət göstərir.

Üçmərtəbəli məktəb binasında 3 musiqi ədəbiyyatı, 3 solfecio, 3 kamança, 3 nağara, 7 fortepiano, 2 tar, 4 qarmon, 2 nəfəsli alətlər, 1 xanəndə, 1 vokal, 1 qanun, 1 saz, 2 balaban, 2 truba sinifləri, 30 yerlik konsert zalı, direktor, müəllimlər, alət təmiri otaqları, kitabxana, arxiv, bufet, qarderob və təsərrüfat otağı vardır.

Ali Məclisin Sədri musiqi məktəbinin kollektivi ilə görüşmüşdür.

Çərçiboğan kənd Uşaq Musiqi Məktəbinin müəllimi Pərvin İsmayılov minnətdarlıq edərək demişdir: "Muxtar respublikada digər sahələrdə olduğu kimi, mədəniyyətin inkişafına da daim diqqət və qayğı göstərilir, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Şəhər, qəsəbə və kəndlərdə müasir mədəniyyət ocaqlarının, o cümlədən musiqi məktəblərinin tikilib istifadəyə verilməsi bunun ən parlaq nümunəsidir. Yeniyetmə və gənclərin istedadlarının və yaradıcılıq potensiallarının üzə çıxarılmasında uşaq musiqi məktəblərinin rolu böyükdür. Çərçiboğan kənd Uşaq Musiqi Məktəbi üçün müasir binanın inşa olunması kollektivimizin sevincinə səbəb olmuşdur. Məktəbdə yaradılan şərait dərslərin yüksək səviyyədə tədrisinə, qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsinə imkan verəcəkdir. Əmin edirik ki, kollektivimiz göstərilən diqqət və qayğıdan ruhlanaraq gənc musiqiçi kadrların yetişdirilməsi üçün səylə çalışacaq, yaradılan şəraitdən səmərəli istifadə etməklə üzərlərinə düşən vəzifələri daha məsuliyyətlə yerinə yetirəcəklər".



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov musiqi məktəbinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Muxtar respublikada 26 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi vardır. Bunlardan 22-si müasir şəraiti olan yeni binalarla təmin olunub. Hazırda muxtar respublikanın musiqi məktəblərində 4700-dən artıq şagird təhsil alır. Bu musiqi məktəbi də 1983-cü ildən fəaliyyət göstərir. Ötən dövrdə məktəbin nailiyyətləri olub, nəfəsli alətlər və uşaq yallı ansamblları muxtar respublikanın bir çox tədbirlərində iştirak edib. Məktəbdə 8 ixtisas tədris olunur və hər ixtisas üzrə müəllimlər formalaşıb. Bu da imkan verir ki, məktəbdə təhsil alan gənclərimiz milli musiqimizi yaşada bilsinlər.

Ali Məclisin Sədri demişdir: Məktəbdə milli musiqi ilə yanaşı, dünyəvi musiqi də öyrədilməlidir. Ona görə də məktəbdə yeni ixtisasların açılmasına, Avropa musiqi alətlərinin tədrisinə diqqət yetirilməlidir. Bu gün muxtar respublikamızda bir sıra orkestrlər və ansambllar fəaliyyət göstərir. Həmin musiqi kollektivlərinin repertuarlarında milli musiqimizlə bərabər, dünya musiqi nümunələri də vardır. Musiqi təhsili gərək pilləli olsun, musiqi məktəblərində oxuyan gənclər daha sonra orta ixtisas və ali təhsil alsınlar. Muxtar respublikada hər üç təhsil pilləsi üzrə imkanlar vardır. Uşaq musiqi məktəbləri, Musiqi Kolleci və Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsi fəaliyyət göstərir. Ötən il Ali Məclis Sədrinin Sərəncamı ilə Musiqi Kolleci Naxçıvan Dövlət Universitetinin tabeliyinə verilmişdir. Artıq təhsil ardıcıllığı təmin olunmuşdur. Kolleci yaxşı qiymətlərlə başa vurmuş tələbələr imtahansız İncəsənət fakültəsinə qəbul olunurlar. Qarşıda duran əsas vəzifə uşaq musiqi məktəblərində tədrisin səviyyəsini yüksəltmək və musiqi təhsili sahəsində ardıcıllığı təmin etməkdir.

"Musiqi duyumu istedad tələb edir. Hər yaxşı oxuyan musiqiçi ola bilməz", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, musiqi duyumu olan gənclər seçilməli, onlarla xüsusi məşğul olunmalı, müəllimlər vəzifələrini layiqincə yerinə yetirməlidirlər.

Ali Məclisin Sədri kollektivə fəaliyyətində uğurlar arzulamışdır.

Bina fərdi istilik sistemi ilə təchiz edilmiş, ətraf abadlaşdırılmışdır.

*Ardı 3-cü səhifədə*

# Çərçiboğan kənd mərkəzində hərtərəfli şərait yaradılıb





Yanvarın 14-də Çərçiboğan kənd mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binada yerləşən təşkilatların fəaliyyəti və yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, 2 mərtəbəli kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, arxiv, statistika otağı, klub, 38 yerlik zal və qazanxana yerləşir. Kitabxana fondunda 6141 kitab vardır. Rabitə evində 672 nömrə tutumlu yeni nəsil ATS quraşdırılmışdır. Hazırda kənddə 255 internet istifadəçisi vardır.



Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının 339 üzvü vardır ki, onlardan da 78-i gənc, 61-i isə qadındır. Ərazi ilk təşkilatının sədri Minayə Nəbiyeva partiya üzvləri və kənd ictimaiyyəti adından minnətdarlıq edərək demişdir: Bu gün Çərçiboğan kəndində əhalinin rahatlığına xidmət edəcək yeni sosial obyektlər istifadəyə verilir. Bütün bunlar isə hakim partiya olan Yeni Azərbaycan Partiyasının fəaliyyəti nəticəsində mümkün olmuşdur. Belə ki, partiyamızın qurucusu ümummilli liderimiz Heydər Əliyev demişdir: ***"Mən həyatımda üç şeyə arxalanmışam: Yaradanıma, xalqıma və zəhmətimə".*** Həqiqətən də, ümummilli liderimiz bütün həyatı boyu Yaradanına inanaraq zəhməti ilə xalqına xidmət etmişdir. Uzun müddətdir ki, şahidi oluruq ki, Siz Heydər Əliyev ideologiyasını davam etdirirsiniz. İllərdir, yorulmadan xalqınıza xidmət edirsiniz. Həm xalqınıza bağlılığınızdan dolayı, həm də kəndimizə bəxş etdiyiniz bu sevinc hissinə görə partiya təşkilatımız adından Sizə dərin minnətdarlığımızı bildirirəm.

Bildirilmişdir ki, Çərçiboğan kəndində baytarlıq xidmətinin təşkilinə xüsusi diqqət yetirilir, mütəmadi olaraq baytarlıq müşahidələri aparılır, dezinfeksiya və dezinseksiya tədbirləri görülür.

Sonra iclas zalında sakinlərlə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Çərçiboğan kəndinin abad yaşayış məntəqələri sırasına qoşulması münasibətilə sakinləri təbrik edərək demişdir: Bu gün Çərçiboğan kəndində yaradılan şərait bir kəndin timsalında ölkəmizdəki dövlət-xalq birliyinin göstəricisidir. Dövlətin insanlara göstərdiyi qayğının nümunəsidir. Eyni zamanda görülən işlər sakinlərin rahat yaşamasına hesablanmışdır. Əgər kənddə şərait varsa, insanların rahatlığı təmin olunubsa, onların işləməsi, fəaliyyət göstərməsi üçün lazımi şərait varsa, o kənddə inkişaf olacaq, məskunlaşma artacaqdır. Həyata keçirilən tədbirlər imkan verəcək ki, kənd bundan sonra da inkişaf etsin, daha da abadlaşsın, torpaqlar əkilsin, insanların yaşayış şəraiti daha da yaxşılaşsın. Əgər bir ölkədə sabitlik varsa, o ölkə inkişaf edəcəkdir, orada insanlar rahat yaşayacaq, insanların rifah halı yaxşılaşacaqdır. Azərbaycan 30 ildir, müstəqil yaşayaraq inkişaf etmiş dünya dövlətləri sırasında öz layiqli yerini tutmuşdur. Bütün bunlara dövlət-xalq birliyi və ulu öndər Heydər Əliyev siyasi xəttinə sədaqət nəticəsində nail olunub. Ümummilli liderimiz Heydər Əliyev yolunun bəhrəsi də yaradılan bu şəraitdir.



Kənd ağsaqqalı İbrahim İbrahimov sakinlər adından minnətdarlıq edərək demişdir: "Ali Məclis Sədrinin gəlişi muxtar respublikanın hər yerində olduğu kimi, bizim kəndimizdə də böyük sevinc və ruh yüksəkliyi ilə qarşılanır. Muxtar respublikanın hər yerində quruculuq işləri sürətlə aparılır və qədim diyar günügündən gözəlləşir. Naxçıvanın hər yerində yenitipli məktəb binalarının salınması gənc nəslin elmli, savadlı olmasına və dünyagörüşünün formalaşmasına böyük təsir edir. Bu gün bizim də kəndimizdə müasir tələblərə cavab verən məktəb binasının, kənd və xidmət mərkəzlərinin, musiqi məktəbinin, həkim ambulatoriyasının və yeni çəkilmiş yolun istifadəyə verilməsi kənd sakinləri arasında böyük sevinclə qarşılanır. Əvvəlcə rayona gedib-gəlmək çətin idi. Kənd sakinləri çox əziyyət çəkirdi. İndi isə yollarımız abadlaşmış, kəndin küçələri asfalt döşəmə ilə örtülmüş, telefon, internet, qaz və elektrik xətləri yenilənmişdir. Bir sözlə, kəndimiz öz simasını tamamilə dəyişərək şəhər görkəmi almışdır. Çərçiboğan kəndinin insanları çox zəhmətkeş, torpağa bağlıdırlar. Sakinlər əkinçilik, maldarlıq və arıçılıqla məşğul olurlar. Əldə etdikləri məhsulları həm bazara, həm də keçirilən festival və yarmarkalara çıxararaq yaxşı qazanc əldə edirlər. Biz də söz veririk ki, bundan sonra da təsərrüfatlarımızı genişləndirəcək, torpaqlarımızı əkib-becərəcək, kənd təsərrüfatının inkişaf etdirilməsində əlimizdən gələni əsirgəməyəcəyik. Söz veririk ki, qurulub-yaradılanları göz bəbəyimiz kimi qoruyacaq və gələcək nəsillərə ötürəcəyik". İbrahim İbrahimov Ali Məclisin Sədrini doğum günü münasibətilə rayon sakinləri adından təbrik etmişdir.

# Çərçiboğan kənd avtomobil yolu yenidən qurulub



Sakinlərin rahatlığına xidmət edən quruculuq tədbirləri çərçivəsində abadlaşan Çərçiboğan kəndinin avtomobil yolu da yenidən qurulmuşdur.

Yanvarın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yolda yaradılan şəraitlə tanış olmuşdur.

Bildirilmişdir ki, ümumi uzunluğu 15,8 kilometr olan yola asfalt örtük salınmış, 5,8 kilometr kənddaxili yollara qum-çınqıl qatı verilmiş, yolun üzərində 3,4 kilometr beton su kanalı çəkilmiş, 53 metal boru, 13 beton su keçidi qoyulmuşdur.



# Həkim ambulatoriyasında müasir səhiyyə xidməti göstəriləcək

Ölkəmizdə tibbi xidmətin müasir standartlar səviyyəsinə yüksəldilməsi, vətəndaşların sağlamlığının etibarlı təminatı, səhiyyə ocaqlarının fəaliyyətinin davamlı olaraq gücləndirilməsi dövlət siyasətinin prioritetlərindədir. Muxtar respublikada da səhiyyə sisteminin inkişafı, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi, infrastrukturun yeniləşdirilməsi daim diqqətdə saxlanılır.

Yanvarın 14-də Çərçiboğan kəndində həkim ambulatoriyası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov səhiyyə ocağının fəaliyyəti ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, ikimərtəbəli həkim ambulatoriyası 14 otaqdan ibarətdir. Burada baş həkim, stomatoloq, palata, mama-ginekoloq və doğuş, manipulyasiya,

*Ardı 4-cü səhifədə*





fizioterapiya, peyvənd, laboratoriya, qeydiyyat, aptek, feldşer, tibb bacısı, texniki işçilər və qazanxana üçün otaqlar vardır. Tibb ocağı stomatoloji qurğu, doğuş masası, quruducu şkaf, peyvənd və təcili yardım çantaları, mikroskop, sentrifuqa, hemometr, qlükometr, tərəzi, boyölçən, soyuducu və digər tibbi avadanlıqlar, fizioterapevtik kabinə elektroterapiya və ultrasəslə müalicə aparatı, ultrayüksəktezlikli cərəyanla müalicə aparatı, parafinəritmə qazanı, solyuks lampası ilə təmin edilmişdir.

Ambulatoriyanın baş həkimi Həsən Həsənli kənddə tibbi xidmətin təşkili üçün yaradılan hərtərəfli şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlıq edərək demişdir: “Mən Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsini bitirmişəm. Bu gün bu məsuliyyətli işin layiqincə öhdəsindən gələcəyimizə və kənd əhalisinin sağlamlığının qeydinə qalacağımıza söz veririk. Bir gənc həkim olaraq bunu da qeyd etməliyəm ki, bu gün muxtar respublikada mənim kimi gənc məzunlar müraciət etdikləri müəssisələrdə asanlıqla işlə təmin oluna bilirlərsə, bu, Ali Məclis Sədrinin gənclərə göstərdiyi qayğının və etimadın göstəricisidir”.

Ali Məclisin Sədri sakinlərin, xüsusilə uşaqların sağlamlığına və peşə hazırlığına diqqət yetirilməsi barədə tapşırıqlar vermişdir.



## Çərçiboğanda yeni xidmət mərkəzi fəaliyyətə başlayıb





Çərçiboğan kəndində əhalinin rahatlığının təmin olunması istiqamətində görülən kompleks tədbirlər çərçivəsində yeni xidmət mərkəzi də tikilmişdir.

Yanvarın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mərkəzin açılışını etmişdir.

Məlumat verilmişdir ki, mərkəzdə bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, dərzi, ərzaq, sənaye və təsərrüfat malları mağazaları və 3 anbar vardır. Burada xidmətin təşkili üçün nümunəvi şərait yaradılmış, 9 nəfər işlə təmin olunmuşdur.

Ali Məclisin Sədri xidmət mərkəzində ailə təsərrüfatı məhsullarının satışına, yerli məhsullara üstünlük verilməsi barədə tapşırıqlar vermişdir.

* * *

Çərçiboğan kəndində yeni sosial obyektlər tikilərkən bir sıra abadlıq işləri də görülmüşdür. Kənddə 1130 metr fiber-optik, 5100 metr yeraltı kabel, 10 kilometrdən artıq hava rabitə xətti çəkilmişdir. Həmçinin elektrik təsərrüfatı tamamilə yenilənmiş, 52 ağac dayaq basdırılmış, 9400 metr məsafədə məftil naqillər müxtəlif en kəsikli kabel xətti ilə, 5400 metr yararsız məftil naqillər yenisi ilə əvəz edilmiş, 3 transformator yarımstansiyasında cari, 10 transformator yarımstansiyasında əsaslı təmir işləri aparılmışdır. Bundan başqa, 620 poqonometr polietilen borularla yeni tikililərə qaz xətti çəkilmiş, 15 min 941 poqonometr qaz xəttində dəmir borularla təmir-bərpa işləri görülmüşdür. Eyni zamanda kənddə mövcud içməli su xəttinin 550 metrlik hissəsində təmir-bərpa işləri aparılmış, 150 metr yeni içməli su xətti çəkilmiş, 4,7 kilometr arxlarda lildən təmizləmə işləri görülmüş, kanal üzərində yeni subölüşdürücü qapı quraşdırılmışdır.



**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



# Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Leyla Əzimbəyovanın fərdi yaradıcılıq sərgisi açılıb





Yanvarın 14-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Leyla Əzimbəyovanın "Fərqli olaraq" adlı fərdi yaradıcılıq sərgisi açılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sərginin açılışında iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin fəaliyyəti üçün hərtərəfli şərait yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə Rəssamlar Birliyinin 40 və 50 illik yubileyləri qeyd olunmuş, yeni bina istifadəyə verilmişdir. Bütün bunlar göstərilən qayğının ifadəsi olmaqla yanaşı, həm də muxtar respublika rəssamlarının məsuliyyətini daha da artırır. Bu günədək keçirilən "Naxçıvan-bəşəriyyətin beşiyi" Beynəlxalq Rəsm festivallarında, ümumilikdə, 36 ölkədən 250-yə yaxın rəssam iştirak etmişdir. Təbii ki, bu da Naxçıvanda sənətə verilən dəyərin daha bir ifadəsidir. Sevindirici haldır ki, bu gün Naxçıvan rəssamlıq məktəbində varislik təmin olunmuş, gənc və istedadlı rəssamlar yetişmiş, onların yaradıcılığı hərtərəfli stimullaşdırılmışdır. Hər il Rəssamlar Birliyində onlarla sərgi açılır, yüzlərlə yeni əsər nümayiş etdirilir. Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Leyla Əzimbəyovanın "Fərqli olaraq" adlı sərgisi də bu qəbil sərgilərdəndir. Rəssamın əsərləri özünəməxsus üslubda yaradılıb. O bizim gözümüzlə gördüyümüz, məişətdə istifadə etdiyimiz əşyaları natürmortlarında öz baxış prizmasından, dərin məzmun çaları ilə nümayiş etdirir. Rəssamın əsərlərində cəsarətli rəng seçimi və hökmranlıq edən güclü fırça zərbələri müşahidə edilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ümummilli liderimiz Heydər Əliyevin ***"Bütün rəssamlarımızın əsərlərinə qayğı ilə yanaşmalıyıq və gözəl əsərlər yaratmaları üçün şəraiti təmin etməliyik"*** fikrini diqqətə çatdıraraq demişdir: Bu gün ölkəmizdə ümummilli liderimizin yolunun uğurla davam etdirilməsi və bu yola sədaqət rəssamlıq sənəti sahəsində də uğurların qazanılmasına şərait yaradır. Bu sahədə təhsilin bütün pillələri – orta ixtisas, ali və akademik pillələri təmin olunmuş, sərgi salonları, emalatxanalar və qalereyalar istifadəyə verilmişdir. Eyni zamanda rəssamların əməkləri qiymətləndirilir, fəxri adlar verilir, Prezident mükafatına və təqaüdünə layiq görülürlər. Bunlar ölkəmizdə rəssamlıq sənətinə göstərilən dövlət qayğısının ifadəsidir.

Ali Məclisin Sədri demişdir: Rəssamlıq daim diqqətçəkən peşələrdən olmuşdur. Ona görə ki, sənətə qiymət verilən bütün dövrlərdə rəssamlıq peşəsinə böyük maraq olub. Elə peşələr var ki, onlar istedad tələb edirlər. Rəssamlıq, şairlik də belə peşələrdəndir. Ədəbiyyat üzrə təhsil alanların hamısı şair, rəssamlıq məktəbini bitirənlərin hamısı rəssam ola bilmir. Böyük rəssam və heykəltəraş Leonardo da Vinçi deyirdi ki, *"Rəsm görünən şeirdir, şeir isə eşidilən rəsmdir"*. Ona görə də bu sahədə təhsillə bərabər, istedad da mühüm rol oynayır. Bu gün sərgisi keçirilən Leyla Əzimbəyovanın özünəməxsus janr üslubu var. Onun əsərlərində həyat olduğu kimi görünür, rəng seçimləri heç də bədbin deyil, əhvali-ruhiyyə yaradan rənglərdir. Leyla Əzimbəyovanın fərdi yaradıcılıq sərgisi Bakı şəhərindən sonra Naxçıvanda keçirilir, onun əsərləri ölkəmizin tanınmış rəssamları tərəfindən yüksək dəyərləndirilir.



"Bugünkü sərgi muxtar respublikanın mədəni həyatında bir hadisədir. Çünki Leyla Əzimbəyovanın yaradıcılığı muxtar respublikanın, ümumilikdə isə ölkəmizin rəssamlıq sənəti sahəsində yeni bir formadır, janrdır", – deyən Ali Məclisin Sədri bu münasibətlə rəssamları və Leyla Əzimbəyovanı təbrik etmişdir.

Qeyd olunmuşdur ki, sərginin bir əhəmiyyəti də ondan ibarətdir ki, həm Bakıda, həm də Naxçıvanda satılacaq əsərlərdən əldə olunacaq vəsaitlər ölkə Prezidenti tərəfindən yaradılmış "YAŞAT" Fonduna köçürüləcəkdir ki, bu da ərazi bütövlüyümüzün bərpa olunmasında sağlamlığını itirmiş qazilərin müalicəsinə və digər işlərə sərf olunacaqdır.

Ali Məclisin Sədri bu təşəbbüsə görə rəssama təşəkkür etmiş, sərginin uğurlu olmasını arzulamışdır.

Sonra Ali Məclisin Sədri və tədbir iştirakçıları sərgiyə baxmışlar.

Məlumat verilmişdir ki, sərgidə Leyla Əzimbəyovanın əsərləri əsasında hazırlanan "Fərqli olaraq" adlı albom-kataloqu və rəssamın "Möminə xatın", "O vaxtkı toylar", "İndiki toylar", "Yaşanmışlıq", "Söhbət", "Bağda", "Arpaçay", "Biçənək", "Payız nemətləri", "Xatirələr", "Payız" olmaqla, ümumilikdə, 38 əsəri nümayiş etdirilir. Sərgidə rəssamın portret, peyzaj, kompozisiya və natürmort janrlarında çəkdiyi əsərlər dərin məzmunu və yaradıcılıq xüsusiyyətləri ilə seçilir. Bu əsərlərdə həyat əşyi, insan və təbiətə doğma münasibət diqqəti daha çox cəlb edir.

Rəssam Leyla Əzimbəyova "Arpaçay" əsərini Ali Məclisin Sədrinə hədiyyə etmişdir.

Ali Məclisin Sədri demişdir ki, Naxçıvanın təbiəti rəssamlar üçün geniş yaradıcılıq imkanları açır. Yəni Naxçıvan sənət baxımından çox zəngin və özünəməxsusdur. Bu illər ərzində muxtar respublikanın rəssamlıq sənətində xeyli uğurlar, irəliləyişlər əldə olunub. 1990-cı illərin acı nəticələri rəssamlıq sənətinə də zərbə vurmuş, bir sıra rəssamlar başqa ölkələrə getmiş, bəziləri peşəsini dəyişmişdir. Sonrakı illərdə görülmüş tədbirlər bu sahəni də bərpa etdi. Hazırda muxtar respublika rəssamlarının əsərləri nəinki ölkəmizdə, həm də beynəlxalq sərgilərdə nümayiş olunur.



Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə etdiklərinə görə muxtar respublika rəssamlarına təşəkkür etmişdir.

Sonda xatirə şəkli çəkdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## *"Ənənəvi incəsənət və sənətkarlıq nümunələri"* sərgisi keçirilib



Naxçıvan Dövlət Universitetinin Türkiyənin İğdır Universiteti ilə birgə təşkil etdiyi, iki gün davam edən sərginin açılış mərasimində çıxış edən universitetin rektoru, dosent Elbrus İsayev tədbirdə, ümumilikdə, 1000-dən çox sənət nümunəsinin sərgiləndiyini diqqətə çatdırıb, birgə keçirilən sərginin təcrübə mübadiləsi baxımından mühüm əhəmiyyətini qeyd edib.

Türkiyənin Naxçıvandakı baş konsulu Məhmət Emin Kiraz Türkiyə və Azərbaycan arasında bütün sahələrdə olduğu kimi, təhsil sferasında da qazanılan uğurlardan bəhs edib.

İğdır Universitetinin rektoru Məhmət Hakkı Alma 2008-ci ildə yaradılan ali təhsil ocağı haqqında məlumat verib. Bildirilib ki, ilk dəfə Naxçıvanda keçirilən sərginin sonra İğdırda, İranda, Gürcüstanda keçirilməsi planlaşdırılıb. Rektor bir çox sahələrdə Naxçıvan Dövlət Universiteti ilə birgə iş birliyinin əhəmiyyətindən danışıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov, Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov, Naxçıvan Universitetinin rektoru Nurlana Əliyeva, Naxçıvan Muxtar Respublikasının Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva çıxış ediblər.

Sərgidə rəssamlıq və heykəltəraşlıq nümunələri, ağac üzərində rəsmlər, dekorativ-tətbiqi sənət növləri, zərgərlik məmulatları nümayiş olunub. Ötən ilin ən uğurlu və möhtəşəm layihəsi – Texnopark, eskiz layihələri, ənənəvi və kompüter qrafikası ilə hazırlanan maketlər təqdim edilib.

Qardaş ölkədən gələn sənət sahibləri də maraqlı əl işləri nümayiş etdiriblər.

Sərginin ikinci günündə workshop təşkil edilib. Burada sərgilənən əl işlərinin hazırlanma texnikası və texnologiyası əyani surətdə göstərilib. Təşkilatçılar İğdır Universiteti tərəfindən təşəkkürnamə ilə təltif ediliblər.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Orden və medalların təqdimatı olub



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci ilin iyun və noyabr aylarında imzaladığı sərəncamları ilə respublikamızın ərazi bütövlüyü uğrunda aparılmış döyüş əməliyyatlarında igidlik və şücaət nümayiş etdirmiş hərbi qulluqçular müxtəlif orden və medallarla təltif edilib. Naxçıvan Şəhər İcra Hakimiyyətində həmin orden və medalların, onların vəsiqələrinin şəhid ailələrinə və qaziyə təqdim olunması münasibətilə tədbir keçirilib.

Əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda canını qurban verən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov çıxış edib.

Qeyd edilib ki, təltif olunanlar sırasında Naxçıvan şəhərində qeydiyyatda olan qəhrəmanlar da az deyil. Vətən müharibəsində böyük şücaət və qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə yüksəlmiş Naxçıvan şəhər sakinləri mayor Sadiq Həsənov, baş leytenant Fuad Əlizadə, baş leytenant Sahil Məmmədov, baş leytenant İsmayıl Vəliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə 3-cü dərəcəli "Rəşadət" ordeni və "İgidliyə görə" medalı ilə təltif olunublar. Baş leytenant, qazi Arif Niftəliyev isə "Vətən uğrunda" medalı ilə təltif edilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəisi, mayor Anar Aqilov çıxış edib.

Sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "İgidliyə görə" və "Vətən uğrunda" medalları şəhidlərin ailələrinə və qaziyə təqdim edilib. Qazi və şəhid ailələri onlara göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

**✍ Nail ƏSGƏROV**

## "İmplant DentNakhchivan" Stomatoloji Klinikası istifadəyə verilib



*Yanvarın 14-də Naxçıvan şəhərində "İmplant DentNakhchivan" Stomatoloji Klinikası tibbin ən son yenilikləri ilə muxtar respublika sakinlərinin istifadəsinə verildi. Bu münasibətlə keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.*

Klinikanın rəhbəri, tibb üzrə fəlsəfə doktoru Rauf Cəfərov açılış tədbirinin muxtar respublikada səhiyyənin inkişafına göstərilən dövlət qayğısının, insan amilinə verilən dəyərin bəhrəsi olduğunu vurğulayıb klinikanın yenidən qurulmasına göstərdiyi diqqətə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Zeynəb Mənsimova implantoloji klinikanın Naxçıvanda stomatologiyanın inkişafına mühüm töhfə verəcəyinə əminliyini bildirərək kollektivə uğurlar arzulayıb.

Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin dekanı Elsevər Əsədov klinikada tədris otağının mövcudluğunun bu sahədə təhsil alan tələbələrin yeni biliklər və təcrübə əldə etməsinə geniş imkanlar açdığını bildirib, universitet adından hədiyyələr təqdim edib.

Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi Hüseyn Niftəliyev klinikanın stomatoloji sahədə yeniliklərin tətbiqi baxımından ən müasir ünvan olduğunu bildirib.

Azərbaycan İmplantoloq İctimai Birliyininin sədri, tanınmış implantoloq Cabbar Həsənov muxtar respublika rəhbərinin diqqət və qayğısı



ilə bu gün diyarımızda mühüm səhiyyə infrastrukturunun qurulduğunu deyib. Naxçıvanda ilk implantoloji klinikanın qurulmasından bu günə qədər əməkdaşlığın uğurla həyata keçirildiyini diqqətə çatdıran Cabbar Həsənov əlaqələrin bundan sonra da inkişaf etdiriləcəyini vurğulayıb.

Sonra klinikanın imkanları ilə tanışlıq olub. Məlumat verilib ki, əvvəllər 100 kvadratmetr ərazidə fəaliyyət göstərən klinika əldə edilən güzəştli kreditlər sayəsində genişləndirilərək 200 kvadratmetrə çatdırılıb. İki mərtəbədən ibarət olan klinikanın birinci mərtəbəsində qeydiyyat, sterilizasiya, müayinə, həkim kabinələri və rentgen otaqları yaradılıb. Klinikada İtaliya, Cənubi Koreya və Almaniya istehsalı olan avadanlıqlar quraşdırılaraq tibbin ən son yenilikləri tətbiq olunur. Yeni rentgen avadanlığı vasitəsilə muxtar respublikada ilk dəfə 3D rentgen müayinəsi həyata keçiriləcək. Klinikanın ikinci mərtəbəsində isə həkim, sterilizasiya, tədris və əməliyyat otaqları yerləşir.

Qeyd edək ki, ən müasir imkanların mövcudluğu burada əməliyyatların uğurla aparılmasını şərtləndirməklə yanaşı, eyni anda daha çox pasiyentin qəbulunu təmin edəcək. Burada mövcud olan avadanlıqların bir çoxu ölkəmizdə ilk dəfə tətbiq olunan müasir tibbi texnologiyadır. Klinikada diqqətçəkən ən mühüm yeniliklərdən biri isə Naxçıvan Dövlət Universitetinin Stomatologiya kafedrasının tələbələri üçün tədris otağının yaradılmasıdır. Bu otaqda tələbələr nəzəri biliklərlə yanaşı, icra olunan implant əməliyyatlarını birbaşa izləməklə mühüm təcrübə əldə edəcəklər.

Stomatoloji klinika ilə tanışlıqdan sonra tədbir çay süfrəsi arxasında davam etdirilib.

**Gülcamal TAHİROVA**

## Kollegiya iclası keçirilib

*Yanvarın 14-də Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində 2021-ci ilin yekunlarına və qarşıda duran vəzifələrin icrasına həsr olunmuş kollegiya iclası keçirilib.*



Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Vüsal Sevdimaliyev kollegiya iclasında geniş məruzə ilə çıxış edib. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə diyarımızda müasir texnologiyaların tətbiq edilməsi nəticəsində telekommunikasiya xidmətlərinin əhatə dairəsi ilbəil artırılır, bu istiqamətdə ardıcıl və sistemli tədbirlər həyata keçirilir. Yaşayış məntəqələri tamamilə telefonlaşdırılıb, müasir rabitə sistemləri qurulub, sürətli internetə çıxış təmin olunub. Ötən ildə 9 Rabitə Evi, habelə Sədərək Radio-Televiziya Ötürücü Stansiyasının yeni binası istifadəyə verilib, Şərur rayonunun Çərçiboğan, Ordubad rayonunun Unus, Kələki və Pəzməri kəndlərində yeni inşa olunan kənd mərkəzlərinə rabitə xətlərinin çəkilməsi üçün zəruri tədbirlər həyata keçirilib.

Muxtar respublikanın stasionar telefon şəbəkəsinin tamamilə Yeni Nəsil (NGN) Telekommunikasiya sisteminə keçirilməsi, habelə "Naxtel" mobil rabitə şəbəkəsinin abunəçi tutumunun artırılması üçün yeni baza stansiyalarının istifadəyə verilməsi istiqamətində işlər davam etdirilib. Həyata keçirilən tədbirlər 4-cü nəsil "Naxtel" abunəçilərinin sayının artmasına da səbəb olub.

Qeyd olunub ki, hesabat dövründə muxtar respublika ərazisində fiber-optik kabel şəbəkəsinin genişləndirilməsi işinin davam etdirilməsi məqsədilə "Evədək optika" layihəsi uğurla icra olunub. Həmçinin əhalinin keyfiyyətli rabitə və internet xidmətləri ilə təmin edilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilib. İl ərzində bir sıra qurumların saytlarının dizayn, quruluş və məzmun baxımından yenilənməsi istiqamətində təhlillər aparılıb, layihələr hazırlanıb. Ötən il ərzində Naxçıvan şəhərinin bir sıra yaşayış məntəqələrində və muxtar respublikanın bir sıra rayonlarında müxtəlif tutumlu 8 yeni Avtomat Telefon Stansiyası quraşdırılıb, bir sıra qurumlara rabitə xətləri çəkilib, üç və dörd rəqəmli qısa nömrələr təqdim edilib, ümumilikdə, 2441 yeni telefon nömrəsi abonentlərin istifadəsinə verilib, 6300-dən artıq abonent genişzolaqlı internetlə təmin olunub. Həmçinin telekommunikasiya şəbəkəsinin inkişafına dair layihələr icra olunub, şəhər, rayon mərkəzlərində və kəndlərdə fəaliyyət göstərən Avtomat Telefon stansiyalarına internet plataları əlavə edilib.

Distant tədrisə cəlb edilmiş hərəkət qabiliyyəti məhdud uşaqların ünvanlarına kəsintisiz internet verilib, distant tədrisə yeni cəlb edilmiş sağlamlıq imkanları məhdud 3 uşağın yaşadıqları ünvanlar genişzolaqlı ADSL (Asimmetrik Rəqəmsal Abunəçi Xətti) internetlə və zəruri avadanlıqlarla təmin olunub. Bildirilib ki, hesabat dövründə 240-ı sahibkarlar, 68-i hüquqi şəxslər, 12-si vətəndaşlar, 157-si isə dövlət qurumları olmaqla, ümumilikdə, 477 elektron imza sertifikatı qanunvericilikdə nəzərdə tutulmuş qaydada hazırlanaraq aidiyyəti üzrə istifadəçilərə təqdim edilib.

Bildirilib ki, nazirliyin aparatında sürətli poçt xidmətinə lisenziya verilməsi üçün tələb olunan şərtlərin yerinə yetirilməsini müəyyən etmək üçün yaradılan komissiyaya daxil olan müraciətlərə əsasən 2021-ci il ərzində 9 karqo şirkətinə rabitə xidmətləri növünün sürətli poçt xidməti alt növünü həyata keçirmək üçün xüsusi lisenziya verilib. Həmçinin il ərzində komissiya tərəfindən muxtar respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən karqolarda monitorinqlər aparılıb.

Nazirlik tərəfindən qeyd olunan dövrdə kadr hazırlığı da diqqət mərkəzində saxlanılıb, nazirliyin aparatında və tabeli qurumlarında çalışan əməkdaşların zəruri biliklərinin artırılması məqsədilə təşkil olunmuş kurslar davam etdirilib. Kurslara cəlb olunan bütün əməkdaşlar aid sahələr üzrə zəruri əyani vəsaitlə təmin olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamının icrası ilə bağlı tədris müddəti ərzində təhsil alan tələbələrin təcrübə keçmələri üçün zəruri işlər həyata keçirilib.

Naxçıvan Dövlət Universitetinin Magistratura mərkəzində Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə təşkil edilmiş tədbirdə "Azerfon" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən aylıq təqaüd proqramına cəlb edilmiş tələbə şəhid ailəsi üzvlərinə təqaüd kartları təqdim edilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

## "Şərq qapısı" qəzetinin rəsmi internet saytı yenilənmişdir




Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" 2021-ci il 1 iyun tarixli Sərəncamının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin proqramçıları tərəfindən "Şərq qapısı" qəzetinin rəsmi internet saytı müasir proqramlaşdırma dillərindən istifadə edilərək müasir üslubda yenidən hazırlanmışdır.

*www.serqqapisi.azdomen* adı ilə fəaliyyət göstərən yenilənmiş internet saytı həm funksionallıq, həm də məzmun cəhətdən əvvəlki versiya ilə müqayisədə daha da təkmilləşdirilmiş və yeni informasiyalarla zənginləşdirilmişdir. İstifadəçi rahatlığını təmin etmək üçün sayt müasir üslubda tərtib edilərək, hər bir istifadəçinin kompüterinin, planşetinin və ya mobil telefonunun ekran ölçülərinə (responsive dizayn) uyğun hazırlanmışdır.

Əsas səhifədə istifadəçilərin informasiya əldə etmələri üçün qəzetin ünvanı, əlaqə telefonu, elektron poçt ünvanı və "Axtarış" bölməsi yerləşdirilmiş, "Rəsmi xronika" və "Həftəlik nömrələr" slaydlar şəklində yığılmış, həmçinin saytın əvvəlki versiyası saxlanılmaqla *www.oldserqqapisi.az* domeninə keçid təmin olunmuşdur.

Vətəndaşların elektron formada müraciət etmələri üçün "Əlaqə" bölməsi yaradılmış, "Xəbərlər" bölməsinə "İctimai-siyasi", "İqtisadiyyat", "Sosial", "Elm-təhsil", "Mədəniyyət", "Turizm", "İdman", "Müsahibələr" altbölmələrinə keçidlər də daxil edilmişdir. "Faydalı linklər" bölməsində bir sıra internet saytlarına keçidlər qeyd edilmiş, saytın "Naxçıvan bu gün" adlı bölməsində isə muxtar respublikamızın inkişafını və turizm potensialını, eləcə də tarixi abidələrini əks etdirən fotoşəkillər slaydlar vasitəsilə göstərilmişdir.

Qəzetin internet səhifəsi SSL (təhlükəsizlik) sertifikatı ilə təmin olunması, saytın optimizasiyası (SEO-Search Engine Optimization) axtarış sistemlərinə uyğunlaşdırılması, "Google" axtarış sistemində qeydiyyatdan keçirilməsi və axtarış sistemlərində ön sıralarda tapılması üçün mütəxəssislər tərəfindən zəruri texniki tədbirlər həyata keçirilmiş, eləcə də domenə bağlı e-poçt adresləri ilə təmin olunmuşdur. Həmçinin qəzetin aidiyyəti əməkdaşlarına istifadəçi idarəetmə panelinin təlimi ilə əlaqədar metodik köməklik göstərilmişdir.

Yeni hazırlanmış sayt həm ingilis, həm də rus dillərində fəaliyyət göstərməklə oxucuların istəyinə uyğun olaraq internet səhifəsindən daha operativ faydalanmasına öz töhfəsini verəcəkdir. Dizayn, quruluş və məzmun baxımından zəruri tələblərə cavab verən yeni internet saytı qəzetin fəaliyyətinin ayrı-ayrı istiqamətlərinin, bu sahədə olan yeniliklərin, həyata keçirilən tədbirlərin daha dolğun və operativ şəkildə ictimaiyyətə çatdırılmasını təmin edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Ən güclülərin turniri start götürüb

*Naxçıvan şəhərində yerləşən "Gənclik" Mərkəzində şahmat üzrə "Naxçıvan Premium Turniri-2"yə start verilib.*



Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının təşkilatçılığı ilə keçirilən ən yaxşıların yarışında 12 zəka sahibi mübarizə aparır. Yanvarın 25-də başa çatacaq turnir dairəvi sistem üzrə 11 turdan ibarət olacaq.

İkinci dəfə təşkil olunan turnirin ilk günü maraqlı qarşılaşmalarla yadda qalıb. Püşkə əsasən ilk turda beynəlxalq qrossmeyster Urfan Sevdimalıyev (2353) beynəlxalq usta Toğrul Həsənzadə (2293) ilə qarşılaşıb. Görüş heç-heçə başa çatıb.

Beynəlxalq usta adını qazanan Pərviz Qasımov (2359) ilə yeni FIDE ustası olan Nəsrin Babayevanın (2017) da maraqla gözlənilən görüşü "sülh"lə yekunlaşıb. Beynəlxalq usta Talıb Babayev (2258) Nazlı Hümbətovanı (1629) sınağa çəkib və ağ-qara taxtanı qalib tərk edib. FIDE ustası Sadiq Məmmədov (2177) ilk turu qələbə ilə başa vurub. O buna Rza Həsənlini (1582) məğlub etməklə nail olub. İlk turda Seyid Hüseyn (2098) Ayxan Əliyevin (1983) müqavimətini qırıb. Sadiq Qarayevlə (2126) İlkin Qəbulov (1602) arasında keçirilən görüşdə qalib gələn tərəf Sadiq olub.

Qeyd edək ki, dairəvi sistem üzrə 11 turdan ibarət yarışda oyun vaxtı 90 dəqiqə +, hər gedişə 30 saniyə olmaqla təyin edilib. Turnir cədvəlində xallar bərabər olduğu təqdirdə "Berqer əmsalı", şəxsi görüşlərin nəticəsi və qələbələrin sayı əsas götürüləcək. Turnirdəki sıralamadan asılı olaraq iştirakçıların hər birinə pul mükafatı təqdim olunacaq. Yarış müddətində iştirakçılar Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının dəstəyi ilə "Təbriz" mehmanxanasında qalacaqlar.

Bu gün ikinci turun görüşləri keçiriləcək. Bu turda aşağıdakı cütlüklər qarşılaşacaq:

*Talıb Babayev – Sadiq Məmmədov*
*Nəsrin Babayeva – Rza Həsənli*
*İlkin Qəbulov – Pərviz Qasımov*
*Toğrul Həsənzadə - Sadiq Qarayev*
*Ayxan Əliyev – Urfan Sevdimalıyev*
*Nazlı Hümbətova – Seyid Hüseyn*

**Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Şərur rayon Mahmudkənd sakini Həsənov Faiq Rəşid oğlunun adına olan JN-638 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 44